*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 9, 2025*
*Səh. 271-275*

https://doi.org/10.62837/2025.9.271

**QƏDIMLI AYGÜN AĞAQULU**
Azərbaycan Dillər Universiteti
Bakı şəhəri, Rəşid Behbudov küçəsi, 134
qedimliaygun@gmail.com

# AZƏRBAYCAN TERMİNOLOGİYASINDA SEMANTİK DƏYİŞMƏLƏRİN ROLU

**Açar sözlər- semantika, məna dəyişmələri, terminoloji inkişaf, dil strukturu, termin yaradıcılığı**

**Ключевые слова: семантика, изменение значений, терминологическое развитие, структура языка, терминотворчество**

**Keywords – semantics, semantic change, terminological development, language structure, term formation**

Azərbaycan dilində terminlərin inkişaf istiqamətləri və mənbələri fərqli olduğu kimi yaranma yolları da müxtəlifdir. Dildəki semantik, morfoloji, sintaktik, abreviaturlar və kalka üsulu yeni terminlərin yaranması üçün mühüm istiqamətlərdir. Hər bir üsulun özünəməxsus xüsusiyyətləri və qanunauyğunluqları var.

Azərbaycan dilinin digər dillərdən ən üstün cəhətlərindən biri eyni səs tərkibinə sahib olan sözün bir neçə leksik mənaya malik olmasıdır. Dildəki omonim səciyyəli sözlərin fərqli əşya və anlayışları ifadə etməsi ana dilimizdəki leksik vahidlərin ifadə imkanlarının genişliyini sübut edir. Müxtəlif sözlərin semantik yükünün çoxalması dilin lüğət tərkibinin kəmiyyətcə artmasının qarşısını alır, bir leksik vahidin bir neçə anlayışı ifadə etməsinə imkan yaradır. Belə ki, dilçilər qeyd edir ki, müxtəlif illərdə elm və texnikanın inkişafı nəticəsində meydana çıxan anlayışları yeni sözlərlə ifadə etmək əvəzinə, dilimizin daxili imkanlarına uyğun olaraq mövcud lüğət tərkibində istifadə olunan sözlərə yeni semantik məna vermək daha məqsədəuyğundur.

Eyni səs tərkibinə sahib olsa da, leksik vahidlər yeni semantik məna qazanaraq terminoloji vahid kimi əşya və anlayışları konkret ifadə etmə gücünə sahib olur. Lüğət tərkibindəki leksik-semantik üsulla yaranan terminlər müəyyən xüsusiyyətlərə sahib olur. Yeni terminlər özünün ifadə etdiyi ilkin mənanı itirir və dildə yeni leksik vahidə çevrilir. Nəticədə, bir söz terminologiyada fərqli şöbələrdə işlənərək müxtəlif semantik mənalar ifadə edir. Məsələn, boğaz termini həm biologiyada, həm də coğrafiyada, atribut sözü isə fəlsəfə və dilçilikdə istifadə olunur.

Müxtəlif dövrlərdə terminlərin yaranması və ya başqa dillərdən alınması xeyli fərqli olmuşdur. Bunun ən başlıca səbəbi isə cəmiyyətdə baş verən proseslərlə dilin inkişafının birbaşa əlaqədar olmasıdır. Əvvəllər dilimizdəki terminlərin böyük əksəriyyəti sovet imperiyasının təsiri ilə rus dilindən alınırdısa, hal-hazırda müasir inkişafa uyğun olaraq termin alınması və verilməsinə üstünlük müxtəlif əlaqələrin qurulduğu Avropa dillərinə verilir. Bu səbəbdən də, fərqli sahələrə aid olan Avropa dillərindən alınmış terminlərin sayı sürətlə artmağa başlamışdır. [1,s.88]

Azərbaycan dili yalnız semantik cəhətdən yeni söz kimi meydana çıxan terminlər hesabına deyil, həmçinin əvvəllər dildə var olan sözlərin məzmunca dəyişməsi və yeni məna qazanması hesabına zənginləşir. Qədim zamanlardan mövcud olan köhnə sözlər dildə yeni məna ifadə edir. Beləliklə də, dil semantik cəhətdən daxilən zənginləşir. Bir söz bəzən iki və daha çox məzmuna sahib olur. Bəzən belə hesab edirlər ki, daxili sözlər hesabına termin yaradıcılığı lüğət tərkibini zənginləşdirmir. Lakin, yeni yeni məna qazanmış sözlər dildə mövcud olan müxləlif sözlərlə əlaqəyə girərək söz bazasını yeni tipli sözlərlə zənginləşdirir.

Müasir dövrdə həm iqtisadiyyatda, həm də siyasətdə inki.af nəticəsində yeni söz və ifadələrə ehtiyac yaranır. Dilə nəzərə çarpacaq dərəcədə yeni terminlər daxil olur. Özünə yer edə bilən hər bir söz və ifadə terminoloji lüğətlərdə əks olunur. Günlük həyatımızda qəzet və jurnallarda, televiziya və radioda yeni iqtisadi və siyasi terminlər istifadə olunur. Məsələn, son dövrlərdə iqtisadiyyatda istifadə olunan bazar sözü məna bgenişlənməsi nəticəsində məhsuldar istifadə olunan iqtisadi terminə çevrilmişdir. Tarixə nəzər saldıqda görə bilərik ki, bazar ifadəsi insanların aliş-veriş üçün istifadə etdiyi yer mənası ifadə etmişdir. Hal-hazırda isə müxtəlif formalarda bazar münasibətləri, iqtisadi bazar kimi terminlər daxilində də istifadə olunur. Həmçinin, sahibkar sözü də semantik cəhətdən zənginləşərək iqtisadiyyat sahəsində geniş istifadə olunur. Beləliklə də, aydın şəkildə görünür ki leksik-semantik yolla yeni mənalı söz yaradıcılığı Azərbaycan dilinin terminoloji qatını zənginləşdirən əhəmiyyətli yollardandır.

Dilçilikdə terminoloji leksikanın inkişafında ən məhsuldar olan morfoloji üsul müəyyən məna ifadə etmək üçün söz köklərinə sözdüzəldici şəkilçilərin artırılması ilə yaranır.Həmçinin, M. Hüseynzadə öz qeydlərində göstərir ki, ‘‘Onların hər birinin əsas rolu bir sözdən yeni bir söz yaratmaq olduğu üçün dilimizdə çox böyük gücə malikdir. Morfoloji şəkilçilər dilin inkişafında, yəni yeni yaranmış sözlər hesabına söz ehtiyyatının çoxalması və genişlənməsi işində mühüm amillərdən biri hesab olunur. Çünki ədəbi dilin lüğət tərkibində yeni yaranan sözlərin əksəriyyəti yalnız bu şəkilçilər vasitəsilə yaranmışdır.  [4, s.18 ]

Bütün dövrlərdə olduğu kimi, müasir dövrdə də yeni terminoloji bazanın yaranmasında morfoloji üsuldan geniş istifadə olunmaqdadır. Hal-hazırda elmin, texnikanın, iqtisadiyyatın muxtəlif sahələrində termin yaratmağın əhəmiyyətini nəzərə alsaq, bu yolun əhəmiyyətini çox şərh etməyə ehtiyac yoxdur.

Dil sturukturunda terminoloji bazanın yaranması prosesində daha çox isimlərə sözdüzəldici şəkilçi artərmaqla yeni ixtisas və peşə sözlərinin yaranması müşahidə olunur. Azərbaycan dilində terminlər adətən elmi anlayışı adlandırmaq xüsusiyyətinə sahib olduğundan isim kimi formalaşır. Beləliklə də, yeni söz – termin yaradıcılığında isim düzəldən şəkilçilər mühüm rol oynayır.

Həmçinin, onu da qeyd etmək lazımdır ki, dilimizdə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 5 avqust 108 nömrəli qərarı ilə təsdiq olunmuşdur ki,

‘‘əslində sonu – a ilə bitən alınma sözlərdən aşağıdakılar – a- sız yazılır ; aptek, atmosfer, qəzet, idiom, kaset, kontor, konfet, lent, reklam, sistem‘‘ . [6, s.7]

Onu da qeyd etmək lazımdxır ki, hal-hazırda morfoloji üsulla yaranan terminlərin bir çoxunda həm alınma, həm də milli şəkilçilərdən paralel istifadə olunması müşahidə olunur. Belə terminoloji vahidlər, adətən, ictimai-siyasi terminologiyada müşahidə olunmaqdadır.

M.Qasımov dilinçilikdə elm və texnikanın müxtəlif sahələri üzrə terminlərin yaradılmasında əsas şəkilçilər kimi 20 forma göstərir. [ 5, s.126]

Azərbaycan dilində terminoloji yaradıcılıqda sintaktik üsulda mühüm rol oynayır. Beləki iki və daha artıq sözün birləşərək vahid elmi anlayış ifadə etməsi dilin lüğət tərkibinin zənginləşməsində mühüm rol oynayır. Lüğət bazasında söz yaradıcılığı vasitələrindən biri iki və daha artıq sözün birləşərək bir leksik məna ifadə etməsidir. S. Cəfərov bu barədə qeyd etmişdir ki, ‘‘Mürəkkəb sözün komponentləri monolitləşir və onların mənsub olduqları nitq hissələrinə əsas olan xüsusiyyətlərini tamamilə itirir, mürəkkəb söz başqa sözlərlə əlaqədə sadə sözlərin əlaqəsinə xas olan xüsusiyyətlər kəsb edir.‘‘ [3, s.200]

Sintaktik terminologiyanın əsas hissəsini söz birləşmələri formasında yaranan yeni terminlər təşkil edir. Belə birləşmələrin hissələri hərtərəfli semantik inkişaf nəticəsində mənaca dəyişilmiş, bir qismi isə mənaca genişlənmiş və yeni mənalar qazanmışdır.

Ümumiyyətlə, hər hansı yeni elmi anlayışı adlandırmaq üçün dilin lüğət tərkibində işlənən sözləri qrammatik və sintaktik cəhətdən birləşdirməklə yeni termin yaratmaq daha məqsədəuyğundur. Terminoloji cəhətdən fərqli mənalara malik olan sözlər birləşərək tamamilə yeni mənalı termin- söz birləşməsi yaradır.

Terminlər sistemində söz yaradıcılığı prosesinin digər qolu – sintaktik yolla söz yaratma prosesi Azərbaycan ədəbi dili leksikasının inkişafında mühüm rol oynamış və bu gün də rol oynamaqdadır. Sintaktik üsulla termin yaradıcılığı dilimizin çox zəngin bir şöbəsini təşkil edən və son 20 il ərzində xeyli inkişaf etmiş , demək olar ki, əsas üsullardan birinə şevrilmişdir. Bu yolla yaranan terminlərin əmələ gəlməsində iki əsas üsuldan leksik- sintaktik və morfoloji- sintaktikdən istifadə olunur. Dildəki leksik – sintaktik üsulla yaranan terminlər müstəqillik illərində də yaranmağa davam etmişdir. Həmçinin yeni dövrdə lüğət qatının zənginləşməsində morfoloji- sintaktik üsulunda mühüm mövqeyi var.

Müstəqillik illəri ərzində leksik-semantik yolla yaranan terminlər dilimizdə geniş istifadə olunmuşdur. Belə elmi semantik anlayışlar struktur cəhətdən mürəkkəb olur və əsasən bitişik ya da defislə yazılır. Mürəkkəb sözlər müxtəlif nitq hissələrindən yaranır. İfadə xüsusiyyətlərinə görə bir neçə qrupa bölünür.

1. Birləşmənin bütün tərəfləri isim olanlar. Bu terminlərin daxilindəki isimlər müxtəlif mənaları ifadə edir.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 9, 2025*
*Səh. 271-275*

2. Terminlərin daxilindəki söz birləşməsindəki sözlərdən birinci tərəfi sifət, ikinci tərəfi isim olanlar.

3. Söz birləşməsində birinci hissəsi qeyri, ikinci tərəfi sifət olan mürəkkəb termin

Bu birləşmələr defislə yazılır.

Axır zamanlarda hazırlanan lüğətlərlə bağlı müşahidələr göstərir ki, morfoloji-sintaktik yolla termin yaradıcılığı leksik-sintaktik üsula nisbətən üstünlük təşkil edir. Dilçi alimlər qeyd edir ki, bu normal hadisədir. Mövcud dillərin hər birində yeni söz yaratmaq üçün sintaktik və morfoloji üsuldan istifadə etmək, başqa dildən hazır termin almaqdan daha sərfəlidir.

Onu da qeyd etmək yerinə düşər ki, morfoloji- sintaktik yolla yaranan sözlər müxtəlif elm sahələrində istifadə olunur və bu üsulla yeni terminlərin yaranması davam edir. Yeni mürəkkəb sözlərin yaranmasında morfoloji-sintaktik yolun geniş tətbiqi iltisaqi dillərin, o cümlədən doğma dilimizin şəkilçilərinin məhsuldarlığı ilə bağlıdır.

Respublikamızın müstəqillik illərində morfoloji-sintaktik üsulla yaranan terminləri belə qruplaşdırmaq olar

1. Dildə mürəkkəb söz şəklində olan terminlər
2. Ümumilikdə söz birləşməsi şəklində olan terminlər

Beləliklə, ana dilimizin lüğət tərkibinin zənginləşməsində morfoloji-sintaktik üsulun mühüm rolu olduğu kimi terminoloji leksikada da yeni termin yaratmağın əhəmiyyətli yollarından biri də müxtəlif sözlərə morfoloji əlamətlər artırmaqla, aralarında sintaktik əlaqələr qurmaqla müxtəlif elmi anlayışları ifadə edən terminlər yaratmaqdır.

**Xülasə**

**Azərbaycan terminologiyasında semantik dəyişmələrin rolu**

Aydin şəkildə görünür ki, bəzi morfoloji hissəciklər sözlərə qoşularaq daha çox termin yarada bilir. Həmin morfoloji əlamətlər məhsuldar olduğundan termin yaradadiciliği hal-hazırda da fəaldir. Müəyyən hissəciklər isə başqa dillərdən sözlərin daxilində hazır şəkildə dilimizə daxil olmuşdur. Bu şəkilçilər dar işlənmə dairəsinə malik olur, ya da qeyri-məhsuldar hissəcik olaraq az sayda termin yaratmağa xidmət edir. Həm morfoloji, həm də sintaktik üsul termin yaratmaq işində ən fəal və məhsuldar üsullardır. Dilin öz daxilində genişlənməsi, yenilənməsi və lüğət tərkibinin zənginləşməsində terminologiyanın mühüm rolu var. Hər bir dildə olduğu kimi dilimizdə də yeni sözlərin daxil olması dilçiliyin digər sahələrinə nisbətən terminologiyada daha tez baş verir.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 9, 2025*
*Səh. 271-275*

**AYGÜN QƏDIMLI**

## РОЛЬ СЕМАНТИЧЕСКИХ ИЗМЕНЕНИЙ В АЗЕРБАЙДЖАНСКОЙ ТЕРМИНОЛОГИИ

Ясно видно, что некоторые морфологические частички, присоединяясь к словам, могут образовывать большее количество терминов. Поскольку эти морфологические элементы являются продуктивными, терминотворчество и в настоящее время остается активным. Определённые частички же вошли в наш язык в готовом виде внутри слов из других языков. Эти аффиксы имеют узкую сферу употребления или, будучи непродуктивными, служат для образования ограниченного числа терминов. И морфологический, и синтаксический способы являются наиболее активными и продуктивными методами создания терминов.

**AYGUN QADIMLI**

## THE ROLE OF SEMANTIC CHANGES IN AZERBAIJANI TERMINOLOGY

It is clearly evident that certain morphological particles, when added to words, are able to create a larger number of terms. Since these morphological markers are productive, term formation remains active at present. Some particles, however, have entered our language already embedded within words borrowed from other languages. Such suffixes have a limited range of usage or function as non-productive elements that contribute to the creation of only a small number of terms.

Both morphological and syntactic methods are among the most active and productive means of term formation.

### Ədəbiyyat siyahısı

1. Axundov.A.A. Dil və mədəniyyət. Bakı, 1992
2. 5. Azərbaycan dilinin orfoqrafiya lüğəti. Lider nəşriyyatı, 2004
3. Cəfərov S. Müasir Azərbaycan dili, Leksika II hissə, Bakı 1982
4.Hüseynzadə M. Müasir Azərbaycan dili, Morfologiya, III hissə, Bakı, 1983
5. Qasımov M. Azərbaycan dilində terminlər necə yaranır. Bakı, 1967
6. Azərbaycan dilinin orfoqrafiya lüğəti. Lider nəşriyyatı, 2004

**Rəyçi: fəlsəfə üzrə elmlər doktoru- Sofiya Mirzəyeva**